AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Fiziki Şəxslərin Vergi Uçotu

#09

Dövlət naminə

www.taxes.gov.az

**Hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət göstərmək qərarına gəlmisinizsə, bilməlisiniz ki...**

- **Fərdi sahibkar** sahibkarlıq fəaliyyətinə başladığı günədək yaşadığı yer üzrə;

- Gəliri Azərbaycan Respublikası mənbəyindən olan və **ödəmə yerində vergi tutulmayan** və ya **royaltidən gəlir əldə edən** fiziki şəxs gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq gəlirin alındığı yer üzrə;

- Azərbaycan Respublikasından **kənarda gəlir əldə edən rezident** fiziki şəxs gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq yaşadığı yer üzrə;

- **Xüsusi notarius** fəaliyyətə başladığı günədək fəaliyyət göstərdiyi yer üzrə vergi orqanına "Fiziki şəxsin uçotu haqqında" ərizə ilə müraciət etməlidir.

# Ərizənin təqdimetmə formaları barədə

**Ərizə**

**Elektron** formada internet saytı vasitəsilə;

**və ya**

**Kağız** daşıyıcıda poçt və ya müvafiq vergi orqanının əhatə dairəsində olan vergi ödəyicilərinə xidmət mərkəzi vasitəsi ilə təqdim edilə bilər.

# Uçota alınmaq üçün tələb olunanlar barədə

**Elektron formada ərizəni təqdim etmək üçün:**

- Qeydiyyat İnternet Vergi İdarəsi Portalı vasitəsilə (https://login.e-taxes.gov.az/login/) həyata keçirildikdə elektron imza (http://www.e-imza.az/index.php?lang=az) və ya "Asan İmza" (Mobil İmza) (www.asanimza.az);

**və ya**

- Qeydiyyat Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə "Asan İmza" tələb olunur.

**Kağız daşıyıcıda təqdim olunan ərizəyə:**

- Şəxsiyyəti təsdiq edən sənədin (Azərbaycan Respublikasının vətəndaşları üçün - şəxsiyyət vəsiqəsinin, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün - Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin, qaçqın vəsiqəsinin) surəti;
- Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin informasiya sistemindən fotoşəklin proqram təminatına ötürülməsi texniki səbəblərdən mümkün olmadıqda 25X30 mm ölçüdə 2 ədəd rəngli fotoşəkil;
- Ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim edildikdə notariat qaydasında təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə edilməlidir;
- Yaşı 16-dan 18-ə qədər olan şəxslər üçün ərizə ilə müraciət edənin şəxsiyyət vəsiqəsi, valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı, belə razılıq olmadıqda isə məhkəmənin qərarı əlavə edilməlidir.

# Uçota alınma müddətləri və şəhadətnamənin verilməsi barədə

**Elektron** qeydiyyat **dərhal** həyata keçirilir və vergi ödəyicisinin elektron kabinetinə "Fiziki şəxsin vergi uçotu haqqında şəhadətnamə" göndərilir.

Ərizə **kağız** daşıyıcıda təqdim edildikdə, uçota alınma **1 gün** ərzində həyata keçirilir və "Fiziki şəxsin vergi uçotu haqqında şəhadətnamə" vergi ödəyicisinə elektron formada göndərilir. Ərizədə şəhadətnamənin kağız formada da verilməsi qeyd olunduğu halda, "Fiziki şəxsin vergi uçotu haqqında şəhadətnamə" əlavə olaraq kağız daşıyıcıda verilir.

# Vergitutma sistemləri barədə

Vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər məsələlər Vergi Məcəlləsi (http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3) ilə tənzimlənir. Seçəcəyiniz fəaliyyət növündən və istəyinizdən asılı olaraq əsasən aşağıdakı, lakin bunlarla məhdudlaşdırılmayan vergitutma sistemlərindən birini tətbiq edəcəksiniz və onlara uyğun müvafiq vergiləri bəyan edib dövlət büdcəsinə ödəyəcəksiniz:

- Gəlir vergisi;

**və ya**

- Sadələşdirilmiş vergi;

**və ya**

- Əlavə dəyər vergisi və Gəlir vergisi.

Qeyd olunan vergitutma sistemləri və cəlb oluna biləcəyiniz digər vergilər barədə daha geniş məlumatı **www.taxes.gov.az** internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.

# Lisenziyalar barədə

Bəzi fəaliyyət növlərinin həyata keçirilməsinə lisenziya tələb olunur. Lisenziya tələb olunan fəaliyyət növləri və müraciətetmə qaydası ilə **www.lisenziya.gov.az** internet saytı vasitəsilə tanış ola bilərsiniz.

- Lisenziya olmadan lisenziya tələb edilən fəaliyyət növü ilə məşğul olan vergi ödəyicisi inzibati və (və ya) cinayət məsuliyyətinə cəlb oluna bilər.

# Mühasibat uçotu barədə

Mühasibat uçotunu düzgün aparmalısınız. Mühasibat uçotu ilə bağlı ətraflı məlumatı Maliyyə Nazirliyinin internet saytından **(http://www.maliyye.gov.az/static/13/muhasibat-ucotu)** əldə edə bilərsiniz.

- Mühasibat uçotu düzgün aparılmadığı halda, vergi ödəyicisi maliyyə sanksiyalarına və əlavə vergi hesablamalarına məruz qala bilər.

# Təsərrüfat subyektləri barədə

Təsərrüfat subyekt(lər)iniz (obyekt(lər)iniz) olduqda o, uçota alınmalıdır. Uçota alınma qaydası ilə "Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları" (http://www.taxes.gov.az/modul.php?name=standart) vasitəsi ilə tanış ola bilərsiniz.

- Vergi ödəyicisinin iki və ya daha çox təsərrüfat subyekti (obyekti) olduqda həmin vergi ödəyicisi iqtisadi maraqlar mərkəzinin yerləşdiyi ünvan üzrə yenidən uçota alınır.
- Təsərrüfat subyektiniz fiziki şəxsdən icarəyə götürüləcəyi halda, Vergi Məcəlləsinə uyğun olaraq icarə haqqından ödəmə mənbəyində vergini tutmalı, bəyan etməli və dövlət büdcəsinə ödəməli olacaqsınız.

# Nəzarət-kassa aparatları və POS-terminallar barədə

Hesablaşmaları NKA-lar və POS-terminallar vasitəsilə həyata keçirməli olduğunuz halda, həmin avadanlıqlar uçota alınmalıdır. Uçota alınma qaydası ilə "Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları" (http://www.taxes.gov.az/modul.php?name=standart) vasitəsilə tanış ola bilərsiniz.

- NKA-nı tətbiq etməli olan, lakin etməyən və ya qanunvericiliyə uyğun olmayan qaydada tətbiq edən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq olunur.

# Muzdlu işçilərin cəlb edilməsi barədə

Muzdlu işçiləri cəlb etməklə fəaliyyət göstərəcəyiniz halda, əmək müqavilələrini www.e-gov.az portalı vasitəsilə qeydiyyata almalısınız.

- Müvafiq qaydada əmək müqavilələri hüquqi qüvvəyə minmədən işçiləri cəlb edən vergi ödəyiciləri məsuliyyətə cəlb olunurlar.

## Məcburi dövlət sosial sığorta haqları barədə

Məcburi dövlət sosial sığorta haqlarını vaxtlı-vaxtında hesablayıb ödəməlisiniz.

## Uçot məlumatlarının dəyişdirilməsi barədə

Vergi ödəyicisi olduğu və ya yaşadığı yer, habelə vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan digər məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir.

- Uçot məlumatlarını vaxtında dəyişdirməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

Vergi nəzarəti tədbiri zamanı vergi ödəyicisinin uçot məlumatlarından fərqli məlumatlar əldə olunarsa, bu barədə vergi ödəyicisinə bildiriş göndərilir. Bildiriş göndərildikdən 5 iş günü müddətindən və vergi ödəyicisi dəyişikliklərə dair ərizə təqdim etməzsə, uçot məlumatlarında dəyişikliklər vergi orqanı tərəfindən aparılır və bu barədə 3 iş günü müddətində vergi ödəyicisinə məlumat verilir.

## Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə

**Vergi qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.**

195

AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az
**www.taxes.gov.az**